CARENS

# BAHAR

Iştə bahar, gəzəl bahar
Qoqulanьr gənç fidanlar.
Duman qacьr, coqun qacьr,
Bahar jenə ətir sacьr.
Hər kənyldə sevgi, maraq,
Iravanda-bahara baq!
Jetdi bahar, kecdi əvət,
Nə bir qьlьnç, nə bir dəhşət,
Nə bir fəqan, nə bir zylym,
Nə bir matəm, nə bir əlym,
Jan ej şura gynəşi, jan!
Gynlər acsьn ьşьqьndan.
Baq yzynə cicəklərin,
Nəfəs alьr dərin-dərin.
Cicəklənən baharmьdьr?
Joqsa bu insanlarmьdьr?
Iştə bahar gəzəl bahar,
Qoqulanьr gənç fidanlar.
Hava gəzəl, hava sərin
Nəfəs alьr dərin-dərin
Iştə Abovjan kycəsi
Guruldajьr sevinç səsi...
Sьra aqaçlar jam-jaşьl,
Japraqlarь ьşьl-ьşьl.
Jadьndamь bir başqa jaz,
Hec mənim fikrimdən cьqmaz
Bu aqaçlar cьplaqdьlar,
Sanki jetim uşaqdьlar.
Bu aqaçlar bəjlə ikən
Inanmazdь bə'zi nədən,
Bunlarьn şən sabahьna
Bəjlə gylşən sabahьna?
Indi baqьn gəjərmişlər,
Qanadlarьnь gərmişlər,
Jaqьnlara, uzaqlara
Bizim parlaq uşaqlara,
Bunlar necə bənzəjirlər.
Dərt tərəfi bəzəjirlər.

***

Iştə bahar, gəzəl bahar...
Qoqulanьr gənç fidanlar
Hər kənyldə sevgi, maraq
Iravanda bahara baq!
Kecdi getdi jeddi bahar
Pionerlər boj atdьlar.
Baş qaldьrdь jamaçlarda
Bulut kibi aqaçlar da.
Pionerlər çəsur, qьvraq,
Artьq onlar dejil uşaq.
Bəjydylər bir az hər il,
Imdi onlar jetim dejil.
Qəlblərində səbat, qyvət
Addьmlarь olduqça sərt.
Aldьqlarь nəfəs geniş...
Nə gəzəldir bu tərpəniş...
Cicəklənən baharmьdьr?
Joqsa bu insanlarmьdьr?